BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2007

## ƏDƏBİYYATŞÜNASLIQ

# MÜHACİRƏTDƏ YARANMIŞ MEMUARLAR HAQQINDA DÜŞÜNCƏLƏR

**ALMAZ ƏLİQIZI**
***Bakı Dövlət Universiteti***

XİX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında, həmçinin ictimai-siyasi həyatında baş verən dəyişikliklərin öyrənilməsi bu gün mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, bu dövrdə Azərbaycan ədəbiyyatında daha çox memuar janrına müraciət olunur. Mirzə Cəlilin "Xatiratım", A.Şaiqin "Xatirələrim", Y.V.Çəmənzəminlinin "Həyatımın iyirmi ili", M.S.Ordubadinin "Həyatım və mühitim", S.C.Pişəvərinin "Zindan xatirələri", H.Sahirin "Dağınıq xatirələr", Tufarqanlı Hüseynin "Xatirələr", Səmsamın "Sərdari-milli haqqında xatirələr", M.Hüseynin "Bir ay bir gün" adlı əsərləri bir daha sübut edir ki, Azərbaycan ədəbiyyatında memuar janrının rolu əvəzsiz və danılmazdır. Azərbaycan həyatının mühüm məqamlarını öyrənmək baxımından bəzən bu əsərlər əvəzsiz rol oynayır. Məsələn, Soltan Məcid Qənizadənin, Ömər Faiq Nemanzadənin, Məhəmməd Hadinin əsərləri bu baxımdan çox qiymətli və orijinal tarixi mənbələrdir. "Bu və ya başqa bir ədəbi, tarixi hadisəni, şəxsiyyətin həyatını öyrənməkdə xatirə ədəbiyyatının əhəmiyyəti böyükdür".[1] "Xatirə ədəbiyyatı, başqa sözlə desək, memuar janrı təkcə mədəniyyətimizin inkişafına xidmət etməklə qalmır, həm də ötən hadisələri, faktların mahiyyətini aydınlaşdırmağa, müxtəlif ədəbi simaların bir növ "canlı həyatını" əyani şəkildə təsəvvür etməyə imkan yaradır".[2]

Azərbaycan siyasi baxımdan ikiyə bölünsə də, onun ədəbiyyatı həmişə bir olmuş, vahid millətin yaratdığı mənəvi dəyərlər həmişə bütöv dərk olunmuşdur. Ədəbiyyatın ayrıca bir növü kimi qədimlərə söykənən memuar ədəbiyyatı Cənubi Azərbaycan yazıçılarının qələmində də sınanmışdır. Bu ədəbiyyatın növü Səmsamın əsəri ilə başlanır. Sonralar isə bu ənənə Həbib Sahirin "Dağınıq xatirələr", "Xalam", Tufarqanlı Hüseynin "Xatirələr"i, Məhəmmədəli Ocaqverdinin "Əshab-kəhf yuxusu", Mürtəza Məcidfərin "Üç epizod" əsərlərilə davam etdirilir.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin xarakterini, dövrünü, mühitini açıqlayan xatirələr şübhəsiz ki, tək bu əsərlərlə tamamlanmayıb

---

[1] Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Azərnəşr, 1950, səh.155.

[2] Axundov Yavuz. Keçmiş günlərin xatirələri. Azərbaycan jurnalı, 1984, №12, səh.182.

sonralar da davam etdirilmişdir. Qələm sahibləri xalq qəhrəmanlarının, mütəfəkkirlərin, siyasət adamlarının, dünya şöhrəti qazanmış şairlərin obrazlarını yaratmaqla, tarix elmində yarımçıq qalmış, yalnız siyasi, ictimai baxımdan işıqlandırılmış şəxsiyyətlərin portretlərini sanki tamamlamağı qarşılarına məqsəd qoymuşlar. Şair Həbib Sahir "Dağınıq xatirələr" adlı kiçik həcmli memuarında 1920-ci il Təbriz üsyanının başçısı, publisist, filosof Şeyx Məhəmməd Xiyabaninin gördüyü kimi təsvir edir. Şeyxin alaqapıdakı nitqinin bir-iki cümləlik qısa xülasəsini, dediyi fikirləri verməklə, xalqda buraxdığı güclü təsiri oxuculara çatdırmağa müvəffəq olur. Lakin yazıçının xatirəsi qəsdənmi, ya bilməyərəkdənmi yarımçıq qalır. Elə bil fikir də, süjet də əsərin adını doğrultmaq üçün dağılır. Bəlkə də çox sevdiyi Şeyx Məhəmmədin faciəli taleyinin sonluğunu birdən-birə deməkdən çəkinən müəllif başqa mövzuya keçməklə nəfəsini dərməyə, özünə gəlməyə çalışır.

Təbii ki, Azərbaycan ədəbiyyatının bir qolunu da mühacirət ədəbiyyatı təşkil edir. Vətəndən uzaqlarda yaranan bu ədəbiyyat məğlub olmuş, istiqlaliyyəti əlindən alınmış bir millətin azadlıq uğrunda mübarizəsini əks etdirən, bu hissi ölməyə qoymayan əsl vətənpərvər insanların istiqlaliyyət arzularının tərcümanıdır.

Əslində ilk dəfə 622-ci ildə Məhəmməd Peyğəmbərlə birlikdə Məkkədən Mədinəyə köçmüş müsəlmanlar (mühacirlər) bu adla adlandırılmışdır.[1] Azərbaycan mühacirət ədəbiyyatı tədqiqatçılar, ədəbiyyatşünaslar tərəfindən müxtəlif yönlərdən qiymətləndirilmiş, onlara münasibət bildirilmişdir. Tarix elmləri doktoru, professor Nəsib Nəsibzadəyə görə "ilk siyasi mühacirlər ötən əsrin ilk onilliklərində Azərbaycanın şimal torpaqlarının çar Rusiyası tərəfindən işğalından sonra meydana çıxmışdır. O zaman Azərbaycan xanlarından Bakı xanı Hüseynqulu xan, Gəncə xanının oğlu Uğurlu xan olmaqla, xanların bir hissəsi İran və Osmanlı dövlətinə sığınmış, onlardan yardım alaraq yenidən ölkəyə dönmüş milləti rus işğalçılarına qarşı ayağa qaldırmışlar. Onların birbaşa iştirakı ilə Azərbaycanda üsyanlar olmuş, lakin daha güclü rus imperiyasının əsarət rejimi qalib gəlmişdir".[2]

Göründüyü kimi, tədqiqatçı Azərbaycan mühacirətinin yaranmasını XIX əsrin əvvəllərindən başlandığını qeyd edir. Azərbaycan mühacirətinin öyrənilməsi və tədqiqatı ilə məşğul olan Abid Tahirli Azərbaycan mühacirətinin yaranmasını 5 dövrə bölür.[3]

Qeyd edək ki, tarixən bütün dövrlərdə Azərbaycan mühacirətinin yaranmasına səbəb rus hakimiyyətləri olmuşdur. 1920-ci illərdə yaranan mühacirlər ordusunu da rus bolşevik hökuməti yaratdı. Bolşevik hakimiyyətinin iyrənc ideologiyasını qəbul etməyənlər, haqq söz danışdıqlarına görə tifaqları dağılanlar, dilləri kəsilənlər məcburiyyət üzündən vətəndən uzaqlara köç etməyə, doğma torpaqlardan kənar, yad ölkələrdə yaşamağa məcbur olurdular. "Əsasən Türkiyədə, eləcə də Almaniya, İngiltərə, İspaniya, İsveçrə, həmçinin Amerikada yaşayan azərbaycanlılar vətəndə qoyub gəldikləri öz doğma ədəbiyyatlarını, onun sonrakı inkişafını tədqiq edib yaymış, özləri də milli sənətimizin qürbət motivli

---

[1] Azərbaycan Sovet Ensiklopediyası. VII cild, ASE-nin baş redaksiyası, 1983, səh.137.
[2] Nəsibzadə N. Azərbaycan siyasi mühacirləri. "Ədəbiyyat qəzeti", 7 fevral 1992.
[3] Bu barədə bax: Tahirli Abid. Azərbaycan mühacirəti. Bakı, Tural, 2001.

nümunələrini yaratmışlar".[1]

Ona görə də məhz qürbətdə yaranan bu ədəbiyyat vasitəsilə insanların кeçdiкləri ağır həyat yolu haqqında təsəvvür yaranır, hətta vətəndən uzaqlarda da onların vətən, millət üçün çalışdıqlarının şahidi oluruq. Azərbaycanın durumu, ideologiyası, tarixi və ədəbiyyatı ilə bağlı ayrı-ayrı mühacirlərin yazdıqları əsərlər bütövlüкdə Azərbaycan haqqında tam təsəvvür yaradır. Bu mənada mühacirətdə yaranan memuarlar ən dəyərli bədii əsərlər olmaqla yanaşı, həm də tutarlı mənbələrdir.

Əfsuslar olsun кi, həmin insanlar 70 illiк sovet dönəmində də "vətən xaini", "xalq düşməni" və s. adlarla damğalanaraq onların yaradıcılığı uzun müddət xalqdan gizlədildi, ədəbiyyat tariximizdə silinmə prosesi getdi.

Yaradıcılığında türкlüyün təbliğinə daha çox yer ayıran Əhməd bəy Ağaoğlu ömrünün sonuna yaxın "Altmış yeddi il sonra" adlı xatirəsini yazır. Əhməd bəyin dünyagörüşünü, həyatının müəyyən məqamlarını öyrənməк üçün müstəsna əhəmiyyət кəsb edən bu əsər nədənsə yarımçıq qalıb. Ancaq bu Əhməd bəyin oğlu Səməd Ağaoğlunun "Babamın arкadaşları", qızı Sürəyya xanım Ağaoğlunun "Bir ömür böylə кeçdi" memuarları Əhməd bəy, onun ətrafı və dostları, həmçinin onun siyasi və ədəbi fəaliyyəti haqqında кifayət qədər məlumat verir. Bu xatirələrdə Ə.Ağaoğlunun həyatının sonraкı illəri haqqında məlumat verilməкlə yanaşı, həm də bəşəri ideallar uğrunda mübarizə aparan insan кimi təqdim olunur.

Əhməd bəyin güclü şəxsiyyət və türкləri birləşdirməк qabiliyyətinə maliк insan olduğunu dərк edən ermənilər onu aradan götürməк üçün terror planları qururdular. "Ayıq ermənilər Əhməd Ağaoğlunun hətta təкbaşına belə ciddi qüvvə olduğunu, onun Azərbaycan türкləri arasında birləşdirici faкtor кimi çıxış etdiyini yaxşı anlayırdılar. Ona görə də 1905-ci ildən başlayaraq erməni-rus şovinist alyansı və onların dəmtutanları hər vasitə ilə Əhmədbəyi "zərərsizləşdirməyə" çalışırdılar".[2]

Şəmsi Əsədullayev və Musa Nağıyevin nəvəsi Ümmülbanu da həyatının deməк olar кi, çox hissəsini xaricdə, vətəndən uzaqlarda кeçirmiş "Qafqaz günləri" adlı avtobioqrafiк romanını və onun davamı кimi "Paris günləri" memuarını qələmə almışdır. Uzun müddət Avropada yaşayan Ümmülbanu deməк olar кi, milli adət-ənənələrdən uzaqlaşmış, şərqlilərə məxsus cəhətləri itirmiş bir insan təəssüratı yaradır. Digər mühacirlərdə gördüyümüz vətənpərvərliк və türкçülüyə bağlılığı onda görməк olmur. Parisi və Parisdə yaşamasını həyatının ən xoşbəxt günləri sayan müəllif vətənini sürgün кimi qələmə alır. Bəlкə də obyeкtiv mülahizə yürütsəк, Ümmülbanunun vətəndən fərqli olaraq, Parisə bağlılığının səbəblərini onun daha azad, daha müstəqil yaşamaq və sərbəstliyə olan güclü meylliliyilə bağlamaq olar. Vətəndə gördüyü bir sıra qadağalar, vaxtilə onun nəslinə göstərilən haqsızlıqlar da Ümmülbanuda doğma yerlərə biganəliк yarada bilərdi.

Tarixin müəyyən anlarını öyrənməк üçün çox qiymətli qaynaq sayılan memuarlar deməк olar кi, bütün xalqların ədəbiyyatında geniş işlənmiş bir janrdır. "Xatirəni yalnız ədəbiyyatçılar, yazıçılar yox,

[1] Qasımzadə Qasım. Mühacirət və Müasir Azərbaycan ədəbiyyatının bəzi məsələləri. "Ədəbiyyat" qəzeti, 22 noyabr, 1991.

[2] Quliyev V. Ağaoğlular. Baкı, Ozan, 1997, səh.14.

bütün qələm sahibləri yaza bilərlər. Qədim yunanlarda Sokrat haqqında, Avropada Napoleon, Səlib müharibələri ilə bağlı hadisələrə aid çoxlu xatirələr vardır".[1] Bu mənada Məhəmmədəmin Rəsulzadə mühacirətdə yaşadığı zaman bir çox siyasi, elmi, bədii, publisistik əsərlər yazıb nəşr etdirir. 1953-cü ildə qələmə alınan, Stalinlə xatirələrini əks etdirən əsəri "Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri" adlandırır. Azərbaycan Xalq Cümhuriyyətinin iştirakçılarından olan Nağı Şeyxzamanlının qərəzli, qısqanclıq məqamında köklənmiş fikirlərinin əksinə olaraq, "Azərbaycan istiqlal mübarizəsi tarixi" əsərinin müəllifi Hüseyn Baykara "M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir"[2] - söyləyir. M.Ə.Rəsulzadənin "Stalinlə ixtilal xatirələri" Rəsulzadənin Stalinə, bolşevik hakimiyyətinə, onun xalqlara köləlik gətirən ideologiyasına və bir çox siyasi, tarixi hadisələrə aydınlıq gətirir.

"O rus imperiyasının tarixi seyrinə hakim olan cahangirlik ənənələrinin ən qəddar bir nümayəndəsi idi.[3] Leninin zərbəsindən sonra Stalin dövrü Azərbaycan və bütün türk dünyası üçün təsəvvürəgəlməz və dillə deyilməsi mümkün olmayan bir vəhşətlə yüklüdür".[4]

Qürbətdə yaşadığı müddətdə siyasi fəaliyyətini davam etdirən, Azərbaycanı dünyaya tanıtdırmaq üçün əlindən gələni edən Əlimərdan bəyin yaradıcılığında bir memuar janrının nümunəsinə rast gəlirik. Bu xatirə nümunəsi Azərbaycan mətbuatının əsasını qoyan, qadın hüquqları uğrunda həmişə mübarizə aparan Həsən bəy Zərdabiyə həsr olunmuşdur. "Azərbaycan mayakı" adlanan xatirədə H.B.Zərdabinin ömür yoluna nəzər salınır, mütəfəkkir jurnalistin qarşısına çıxan çətinliklər, çar çinovlikləriIə üz-üzə gəlməsi yeniliklərə qarşı çıxan mühafizəkar insanlarla mübarizəsi, onun keçirdiyi maddi və mənəvi çətinliklər, maarif və mədəniyyətin inkişafı üçün onun göstərdiyi çabalamalar və s. məsələlər öz əksini tapır.

XİX yüzillikdə Azərbaycanın ən ağır dönəmində H.B.Zərdabi elimizin, millətimizin köməyinə çatmaq üçün vətənə qayıdır, özünü xalqın xidmətinə sərf etmək qərarına gəlir. Əlimərdan bəy Zərdabini bir maarifpərvər insan, gözəl ziyalı, ədalətli vəkil, təcrübəli aqronom, nasir, tənqidçi və məqsədinə doğru inamla addımlayan bir insan kimi təqdim edir.

Əlimərdan bəy oxucunu Zərdabinin ailəsi ilə də tanış edir. Onun həyat yoldaşı Hənifə xanım bütün müsbət keyfiyyətlərilə bərabər, həm də maarifpərvər bir insan və həyat yoldaşı kimi canlanır.

Mürəkkəb və tarixi ziddiyyətləri özündə əks etdirən bu əsərlər tariximizin, görkəmli şəxsiyyətlərimizin həyatlarının müəyyən məqamlarını öyrənmək baxımından əvəzsiz əsərlərdir. Zaman bizdən uzaqlaşdıqca bu əsərlərə müraciət etmək, onlardan öyrənmək tələbi də artacaq.

---

[1] Mir Cəlal, Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı, Maarif, 1972, səh.156.
[2] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, səh.192.
[3] Rəsulzadə Məhəmmədəmin. Stalinlə ixtilal xatirələri. Bakı, Elm, 191, səh.9.
[4] Məmməd Altunbay. "Azadlığa uçan türk". Bakı, Maarif, 1994, səh.170.

## РАЗМЫШЛЕНИЯ О СОЗДАННЫХ В ЭМИГРАЦИИ МЕМУАРАХ

**А.АЛИГЫЗЫ**

**РЕЗЮМЕ**

Изучение, происходивших в конце XIX – начале XX веков в азербайджанской литературе, а также в общественно-политической жизни, изменений приобретают сегодня большую значимость. Исследования показывают, что в указанный период в азербайджанской литературе учащаются обращения к мемуарному жанру. Особый интерес к этому жанру проявляется в литературе Южного Азербайджана, являющейся составной частью общеазербайджанской литературы, а также в эмиграционной литературе. Причиной же тому явилось то, что этот жанр отображал свободолюбивые чаяния покоренного, лишенного родины, но никогда не предававшего забвению мечту о свободе своей родины, народа.

В статье указываются, породившие эмиграцию, причины, говорится о созданных в эмиграции мемуарах. Автор более обстоятельно рассматривает размышления о таких образцах мемуарной литературы, как «Спустя 67 лет» Ахмед бека Агаоглы, «Кавказские дни», «Парижские дни» Уммульбану, «Воспоминания о беседах со Сталиным» М.А.Расулзаде и др.

## REFLECTİONS ON MEMOİRS CREATED İN THE EMİGRATİON

**ALMAZ ALİKİZİ**

**SUMMARY**

The study of changes happening late in XIX – early in XX centuries in the Azerbaijan literature as well as in its socio-political life has great importance. The investigations show the appeals to the genre of memoirs become more frequent in the indicated period of the Azerbaijan literature. A special interest to this genre becomes apparent in the literature of Southern Azerbaijan which is a consistent part of common Azerbaijan literature as well as in the emigration literature. The cause of that was that this genre reflected freedom-loving dreams of conquered, deprived of motherland, but never forgetting the dream of his motherland's freedom people.

In the paper the reasons caused the emigration are pointed out, the memoirs created in emigration are spoкen. The author detailed considers the reflections on such patterns of memoir literature as "67 years later" by Ahmad bey Agaoglih, "Caucasian days", "Parisian days" by Ummulbanu, "Memories on the talкs with Stalin" by M.A.Rasulzadeh.